**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 394**

**Bakı şəhəri, 17 sentyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş “Milli sertifikatlaşdırma sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi haqqında**

“Lisenziyalar və icazələr” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli 343 nömrəli qərarı ilə təsdiq edilmiş “Milli sertifikatlaşdırma sistemi haqqında Əsasnamə”nin 2.4.2-ci yarımbəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Milli akkreditasiya qurumu qeydiyyata alınmış uyğunluq sertifikatları ilə bağlı informasiya ehtiyatının “Lisenziyalar və icazələr” portalına inteqrasiyasını təmin edir.”.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**